

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 217 (20.871)

*20 noyabr 2013-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## *Rəsmi xronika*



Noyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avstriya Respublikasına işgüzar səfərə getmişdir.

* * *

Noyabrın 19-da Vyanada, "Hofburq" Prezident Sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avstriya Respublikasının Prezidenti Haynts Fişer ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Avstriya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu. Əlaqələrimizin möhkəmləndirilməsi, iqtisadi əməkdaşlığın gücləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı, münasibətlərin bundan sonra da genişləndirilməsinə əminlik bildirildi.

Söhbət zamanı ikitərəfli münasibətlər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Noyabrın 19-da Avstriyanın paytaxtı Vyanada Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Serj Sarkisyanın görüşü olmuşdur.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər müzakirə edilmişdir.

* * *

Noyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avstriyaya işgüzar səfəri başa çatmışdır.

## Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında əlaqələrin dərinləşməsinə dair 2014-2015-ci illər üzrə Fəaliyyət Planı təsdiq olunmuşdur

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu il noyabrın 11-13-də Türkiyə Respublikasında rəsmi səfərdə olmuşdur.***

Dövlət başçısı səfər müddətində bir sıra görüşlər keçirmiş, hər iki ölkə arasında qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Xüsusilə keçirilən müxtəlif səviyyəli görüşlər zamanı strateji əməkdaşlığa əsaslanan dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi qeyd olunmuş, Azərbaycan Prezidentinin Türkiyəyə rəsmi səfərinin əlaqələrimizin daha da möhkəmlənməsinə mühüm töhfə verəcəyi vurğulanmışdır.

Noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının üçüncü iclası keçirilmişdir. Müzakirə olunan məsələlərdə əməkdaşlığın bütün istiqamətlər üzrə – siyasi, iqtisadi, enerji və digər sahələrdə dinamik inkişaf etdiyi qeyd olunmuş, hər iki ölkənin müvafiq nazirlikləri arasında əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsinin vacibliyi vurğulanmışdır. İclasın yekununda Birgə Bəyanat imzalanmışdır.

Birgə Bəyanatın əlavəsi olaraq qəbul edilmiş "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında əlaqələrin dərinləşməsinə dair 2014-2015-ci illər üzrə Fəaliyyət Planı"nda Naxçıvanla əlaqədar bir sıra məsələlər də nəzərdə tutulmuşdur. Belə ki, Naxçıvan və Türkiyə arasında ticarət əlaqələrinin və dövriyyənin genişləndirilməsi məqsədilə "Naxçıvan ilə Türkiyə arasında qarşılıqlı ticarətin asanlaşdırılması üçün zəruri tədbirlərin görülməsi", İğdır ilə Naxçıvan arasında dəmir yolu şəbəkəsinin yaradılması və Naxçıvanın nəqliyyat probleminin aradan qaldırılması üçün "Naxçıvan Türkiyə vasitəsilə dəmir yolu xəttinin (Qars-İğdır-Aralıq-Dilucu-Naxçıvan) inşa edilməsi məqsədilə hazırlıqların sürətləndirilməsi və 2014-cü ilin I rübündə vəziyyətə dair hesabatın və konkret iş planının hazırlanması" və regionun təbii qazla təminatının şaxələndirilməsi istiqamətində "Naxçıvana Türkiyədən təbii qazın verilməsi üçün lazım olan kəmərin inşasının başa çatdırılması və istismara verilməsi ilə bağlı məsələlərin ARDNŞ və BOTAŞ arasında müzakirə edilməsinə başlanılması" öz əksini tapmışdır.

Bir sözlə, ölkə Prezidenti cənab İlham Əliyevin Türkiyəyə növbəti rəsmi səfəri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikasının yaxın bölgələri arasındakı əlaqələrin gələcək inkişafı baxımından mühüm əhəmiyyətə malik olmuşdur.

***Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin mətbuat xidməti***

## Şərurda Yeni Azərbaycan Partiyasının yaradılmasının 21-ci ildönümü qeyd edilmişdir

Yeni Azərbaycan Partiyasının yaradılmasının 21-ci ildönümü ilə əlaqədar partiyanın Şərur Rayon Təşkilatında tədbir keçirilmişdir. Tədbirdə Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, Yeni Azərbaycan Partiyası yarandığı vaxtdan indiyədək ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətin aparıcı qüvvəsi kimi Azərbaycan xalqının taleyüklü məsələlərinin həllinə özünün layiqli töhfələrini vermişdir.



Qeyd olunmuşdur ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə bu partiya daha da inkişaf etmişdir.

"Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının tərkibində 162 ilk partiya təşkilatı fəaliyyət göstərir. Bunlar 63 kənd ərazi ilk təşkilatı, 64 məktəb, 35 idarə və müəssisə ilk təşkilatlarıdır", – deyən təşkilat sədri əlavə etmişdir ki, rayon təşkilatı öz sıralarında 10 min 453 nəfər partiya üzvünü birləşdirir. Onlardan 2853 nəfəri qadınlar, 3701 nəfəri isə gənclərdir. Partiya üzvləri ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş strategiyanın muxtar respublikada uğurla həyata keçirilməsində fəallıq göstərirlər.

Sonra məruzə ətrafında YAP Şərur Rayon Təşkilatı İdarə Heyətinin üzvü Sahib Musayev, Yengicə kənd ərazi ilk partiya təşkilatının sədri Elmira Rzayeva, Qarxun kənd tam orta məktəb ilk partiya təşkilatının sədri Elsevər Əliyev, YAP Şərur Rayon Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin sədri Orxan Məmmədov çıxış etmişlər.

Sonda partiya sıralarına qəbul edilmiş bir qrup gəncə üzvlük vəsiqələri təqdim olunmuşdur.

**C.ƏLİYEV**

## Türkiyəli diplomat AMEA Naxçıvan Bölməsində

Türkiyənin Naxçıvan Muxtar Respublikasında yeni təyin olunmuş Baş konsulu Əli Rza Akıncı Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin fəaliyyəti ilə tanış olub. Türkiyəli diplomata AMEA Naxçıvan Bölməsinin yaradılmasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin misilsiz xidmətləri haqqında məlumat verilib. Baş konsul bölmədə yaradılmış Heydər Əliyev guşəsi, Kitab-sərgi salonu və bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Arxeologiya və etnoqrafiya muzeyi ilə tanış olub. Türkiyəli diplomatın diqqətinə çatdırılıb ki, Arxeologiya və etnoqrafiya muzeyində Naxçıvan ərazisində bölmə əməkdaşlarının iştirakı ilə keçirilən arxeoloji və etnoqrafik ekspedisiyalar zamanı əldə edilmiş eksponatlar, müxtəlif tarixi abidələrin fotoşəkilləri saxlanılır. Kitab-sərgi salonunda isə Naxçıvanın tarixinə, mədəniyyətinə, folkloruna, təbiətinə aid müxtəlif elmi ədəbiyyatlar, o cümlədən bölmə əməkdaşlarının monoqrafiyaları, hazırlanan kitablar, bölmədə müdafiə olunan dissertasiyaların avtoreferatları, həmçinin AMEA Naxçıvan Bölməsinin "Xəbərlər" jurnalının nüsxələri nümayiş etdirilir.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bu elm mərkəzinin yaradılması, fəaliyyəti, beynəlxalq əlaqələri haqqında məlumat verib. Qeyd edilib ki, hazırda 6 institut, 36 şöbədən ibarət olan AMEA Naxçıvan Bölməsinin Türkiyə Cümhuriyyətinin müxtəlif elmi mərkəzləri və universitetləri ilə əlaqələri mövcuddur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə AMEA-nın Naxçıvan Bölməsinin kitabxanası elektronlaşdırılıb, beləliklə, bu elm mərkəzinin zəngin kitabxanasından xarici tədqiqatçıların istifadəsi üçün də əlverişli şərait yaranıb. Naxçıvanda keçirilən beynəlxalq elmi konfrans və simpoziumlarda türkiyəli elm adamları, Türkiyə Cümhuriyyətində keçirilən beynəlxalq elmi tədbirlərdə isə bölmə əməkdaşları fəal iştirak edirlər.

Baş konsul Naxçıvanın müxtəlif tarixi məkanları, AMEA Naxçıvan Bölməsi ilə tanışlığın onda xoş təəssürat yaratdığını qeyd edib. Regionun strateji əhəmiyyətini xüsusi vurğulayan Əli Rza Akıncı Naxçıvanın tarixi bir mədəniyyət və elm mərkəzi olduğuna da diqqət çəkib. Türkiyəli diplomat ölkəsi ilə elm sahəsində əlaqələrin daha da gücləndirilməsində əlindən gələni etməyə hazır olduğunu deyib. Elmi ədəbiyyatların mübadiləsi, əlyazmaların mikrofilmlərinin hazırlanması istiqamətində əməkdaşlıq perspektivləri haqqında fikir mübadiləsi aparılıb.

**Elnur KƏLBİZADƏ**

## Əsgərlər and içiblər

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında gənc əsgərlərin andiçmə mərasimi keçirilib.***

Mərasimi giriş sözü ilə alay komandiri, polkovnik İspəndiyar Əhmədov açaraq qeyd edib ki, bu gün hərbi hissədə əlamətdar bir gündür. Məhz bu gün xidmətə yeni başlayan əsgərlərimiz hərbi and içirlər.

Bildirilib ki, and müqəddəsdir. Hərbi and hər bir hərbi qulluqçunu mübariz olmağa çağırır. Hərbi andı qəbul edəcək gənc əsgərlər komandirlərin öyrətdikləri bilikləri dərindən mənimsəməli, fövqəladə hallar zamanı xilasetmə və digər təxirəsalınmaz işlərin aparılmasında, zərərçəkmiş əhaliyə ilk tibbi və digər yardımların göstərilməsində komandirlərin əmrlərinə tabe olmalıdırlar. Bu gün and içən hər bir əsgər doğma Azərbaycanımızın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü keşiyində layiqincə duracağına, texnikanın sirlərinə bələd olacağına, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayının əsgəri kimi Vətənə və xalqa sədaqətlə xidmət edəcəyinə şərəf sözü verir.

Sonra alayın gənc əsgərləri hərbi and içiblər.

Mərasimdə Mülki Müdafiə Alayının zabiti Aslan Əliyev çıxış edərək bildirib ki, Mülki Müdafiə Alayının qarşısında duran əsas vəzifələr əhalinin və ərazilərin fövqəladə hadisələrdən, yanğınlardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, su hövzələrində insanların təhlükəsizliyinin, təbii texnogen və terror təhlükələrinə məruz qalan strateji əhəmiyyətli müəssisələrin, obyektlərin və qurğuların mühafizəsinin təmin edilməsindən ibarətdir. Əminliklə demək olar ki, Mülki Müdafiə Alayı sıralarına qatılan gənc əsgərlər bu vəzifələrin öhdəsindən layiqincə gələ biləcəklər.

Tədbirdə gənc əsgərlər adından Vəli Rzayev çıxış edərək anda sadiq qalacaqlarına, hərbi xidməti nümunəvi başa vuracaqlarına söz verib.

Əsgər valideynləri Solmaz Nuriyeva, Səyyad İbrahimov çıxışlarında övladlarının Vətənə xidmət andı içməsindən iftixar duyduqlarını bildirərək onlara nümunəvi xidmət etməyi tövsiyə ediblər.

Sonda Azərbaycan Respublikasının Dövlət himni oxunub, gənc əsgərlər təntənəli marş sədaları altında nizami addımlarla tribuna önündən keçiblər.

**Xəbərlər şöbəsi**

# Hər addımda tərəqqi, hər sahədə uğur var

# Şahbuz



**Şahbuz rayonu muxtar respublikamızın qədim yurd yerlərindən biridir. 836,6 kvadratkilometr ərazini əhatə edən bölgənin əhalisi 24 mindən çoxdur. Rayonda 1 şəhər, 1 qəsəbə, 22 kənd vardır.**

**Kiçik Qafqazın Dərələyəz silsiləsinin cənubuna, Zəngəzur silsiləsinin qərb yamaclarına sığınan Şahbuz rayonu təbii gözəlliklər diyarı, yurdumuzun dilbər guşələrindən biridir. Rayon ərazisindəki təbiət abidələri bu qədim yurd yerinə bir məğrurluq və əzəmət bəxş edib. Şəninə nəğmələr qoşulan Salvartı dağı, Şapur qalası, Üçqardaş, Qonaqgörməz, Ağdaban dağları min illərdir, bu diyarı dövrəsinə alıb. Batabat yaylağındakı “Üzən ada” təbiətin ən böyük möcüzələrindən biridir. Sovet dönəmində “Üzən ada”nı ləğv etmək üçün buraya texnikalar gətirilsə də, rayonun yurd təəssüblü insanları bu təbiət möcüzəsini qoruyub saxlaya biliblər.**

Təbii gözəllikləri gözoxşayan bölgəyə gedən yol boyu dağların döşlərində terras üsulu ilə salınmış yaşıllıq zolaqları Şahbuzun təbiətini daha da zənginləşdirib. Burada bir məsələni xüsusi qeyd edim ki, aran və düzəngah yerlərdə əkilən ağacların su ilə təchizatı o qədər də çətin məsələ deyil. Problem dağ döşlərinə, yamaclara su qaldırılmasındadır ki, bu da öz həllini tapıb. Rayonun idarə, müəssisə və təşkilatlarının əməkdaşları müntəzəm olaraq bu ünvanlara gəlir, müxtəlif aqrotexniki tədbirlər həyata keçirirlər.

Bugünkü söhbətimiz rayonda 2013-cü ilin ilk 9 ayında görülmüş və görülməkdə olan işlər barədədir.

### *Rayon mərkəzi haqqında bir neçə söz*

15 ilə yaxındır, “Şərq qapısı” qəzetində işləyirəm. Burada fəaliyyətə başladığım vaxt ilk olaraq bu rayona ezamiyyətə getmişəm. Bu bölgədə tikinti-quruculuq işlərinə təzəcə başlanılmışdı. Müxtəlif tikinti təşkilatları ilə yanaşı, rayonun əksər idarə və müəssisələrinin əməkdaşları, sakinlər bu tədbirlərdə fəallıq edir, doğma yurdlarının müasir rayona çevrilməsi üçün əzmkarlıq göstərirdilər.

Şahbuz şəhərindəki ümummilli lider Heydər Əliyevin adını daşıyan prospekt elə bir füsunkar görkəmə gətirilib ki, bu gözəlliyə vurğun olmamaq mümkün deyil.

Prospektə paralel olan yuxarıdakı küçə də quruculuq donuna bürünüb. Şahbuzdan bir neçə il əvvəl ayrılan insan indi rayon mərkəzinə üz tutarsa, mübaliğəsiz demək olar ki, şəhəri tanımaz. Çünki burada yenilənməyən bina qalmayıb. Bütün idarə, müəssisə və təşkilatlar üçün müasir memarlıq üslubunda binalar inşa olunub. Rayon İcra Hakimiyyəti, Maliyyə, Təhsil, Polis şöbələri, Baytarlıq və Rabitə idarələri, Dövlət Sosial Müdafiə Fondunun Şahbuz Rayon Şöbəsi, Əhalinin Sosial Müdafiəsi, Gigiyena və Epidemiologiya mərkəzləri, Tarix-Diyarşünaslıq Muzeyi, avtovağzal, “Araz” kinoteatrı, Mərkəzləşdirilmiş Kitabxana Sistemi, Uşaq Kitabxanası və digər təşkilatların fəaliyyət göstərdikləri yeni binalarda əməkdaşlar üçün hərtərəfli iş şəraiti yaradılıb. Həmin ərazilərdə gülkarlıqlar və yaşıllıq zolaqları salınıb.

Quruculuq tədbirləri hazırda davam etdirilir. Şahbuz şəhərinin Heydər Əliyev prospektində inşa olunan Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı üçün 3 mərtəbədən ibarət bina təhvilə hazırlanır.

### *Kəndlərdə kompleks quruculuq tədbirləri həyata keçirilir*

Əvvəlcə onu qeyd edək ki, cari ilin ötən dövrü ərzində rayonun Kükü və Ağbulaq kəndlərində yeni sosial obyektlər istifadəyə verilib.

Rayonun daha bir neçə ucqar kənd yaşayış məntəqəsi bu gün əsl tikinti meydançasını xatırladır. Bölgənin kiçik yaşayış məntəqələrindən biri olan Ayrınc kəndində 8 il bundan öncə yeni məktəb binası istifadəyə verilib. Məktəb binasından bir qədər yuxarıda, yolun sağında ikimərtəbəli kənd mərkəzi, solunda isə xidmət mərkəzi inşa olunur. Bu quruculuq tədbirini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsinin kollektivi həyata keçirir.

Qızıl Qışlaq və Güney Qışlaq kəndləri də yaxın vaxtlarda kompleks quruculuq tədbirləri hesabına müasir yaşayış məntəqəsinə çevriləcək. Hər iki kənddə müxtəliftəyinatlı quruculuq tədbirlərini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şahbuz Rayon İdarəsinin inşaatçıları həyata keçirirlər.

Qızıl Qışlaqdakı binalardan biri kənd tam orta məktəbi üçün nəzərdə tutulub. 110 şagird yerlik məktəb binası zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarətdir. Burada tikinti işləri əsasən başa çatdırılıb, çardaq hissə qurulub. Hazırda son tamamlama işləri həyata keçirilir. Məktəb binasının yaxınlığında inşa olunan kənd mərkəzi iki mərtəbədən ibarətdir. Burada kəndin müxtəlif qurumlarının fəaliyyəti üçün nümunəvi şərait yaradılacaq.

Ucqar dağ kəndinin sakinlərinə daha bir dövlət qayğısı isə bu yaşayış məntəqəsində xidmət mərkəzinin tikintisidir. Burada da tikinti işləri başa çatdırılıb. Quruculuq tədbirləri Güney Qışlaq kəndini də əhatə edir. Bu yaşayış məntəqəsində yaxın günlərdə iki mərtəbədən ibarət kənd mərkəzi və birmərtəbəli xidmət mərkəzi istifadəyə veriləcək.

Sələsüz kəndində məktəb binası, kənd mərkəzi və həkim ambulatoriyasının yenidən qurulması da sürətlə davam etdirilir.

### *Yollar yenilənir, ünvanları bir-birinə yaxınlaşdırır*

“Azərbaycan Respublikasında avtomobil yolları şəbəkəsinin yeniləşməsinə və inkişafına dair (2006-2015-ci illər) Dövlət Proqramı”na uyğun olaraq, ölkəmizin bütün regionları ilə yanaşı, muxtar respublikamızda da yol-nəqliyyat kompleksinin yenilənməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Çünki abad yurd yolundan tanınar, – deyib ata-babalarımız. Bu qənaətdəki həqiqəti isbat etmək üçün uzağa getməyə ehtiyac yoxdur. Elə Şahbuz rayonu bunun üçün ən gözəl ünvandır. Tam dəqiqliyi ilə deyə bilərəm ki, bölgənin bütün kəndlərində olmuşam. İstər sərhəd kəndləri, istərsə də digər yaşayış məntəqələri arasında olan yollarda aparılan quruculuq tədbirlərinə qibtə etməyə bilmirsən. Bu bölgənin elə kəndləri var ki, evlərin biri dağın ətəyində, biri dərənin yanındadır. Yolları da elədir Şahbuzun. Təbii ki, belə coğrafi məkanda yol çəkilişi də çətindir. Lakin bunun öhdəsindən gəlinib.

Uzunluğu 59,2 kilometr olan Naxçıvan-Şahbuz-Batabat avtomobil yolunun yenidən qurulması ən böyük layihələrdən biridir. Yolda körpü və selötürücülər tikilib, yol yatağı bərkidilib, asfalt-beton örtük salınıb. Yolun Naxçıvan-Şahbuz hissəsi 4 zolaqlı, uzunluğu 31,8 kilometr, eni 17,2 metr, Şahbuz-Batabat hissəsi isə ikizolaqlı olmaqla, uzunluğu 27,4 kilometr, eni 9 metrdir.

Kənd yolları da belə qayğıdan kənarda qalmayıb. Bu il Şahbuz şəhərindən Kükü istiqamətinə, bu yoldan sola ayrılaraq Güney Qışlaq kəndinə gedən yolda da yenidənqurma işləri aparılıb. Adıçəkilən yaşayış məntəqələrində 6 körpü tikilib, 9 su keçidi inşa edilib. Görülən işlərin keyfiyyətinə ciddi diqqət yetirilib. Bununla da ucqar dağ yaşayış məntəqələrinə insanların təhlükəsiz və rahat hərəkəti təmin olunub.

### *Aqrar sahənin inkişafı etibarlı ərzaq təminatında başlıca vəzifədir*

Rayon İcra Hakimiyyəti başçısının aqrar məsələlər üzrə müavini Yenibar Vəliyevdən aldığımız məlumata görə, rayon ərazisinin 2765 hektar sahəsi əkin altındadır. Bu sahələrdə şahbuzlular, əsasən, əkinçiliyi, heyvandarlığı və bağçılığı inkişaf etdirirlər. Dağlıq zona olmasına baxmayaraq, burada taxılçılığa maraq ildən-ilə artır. Başa vurduğumuz təsərrüfat ilində Şahbuzun torpaq mülkiyyətçiləri 1009 hektarı buğda, 319 hektarı arpa olmaqla, 1328 hektar sahədən 3703 ton taxıl tədarük ediblər. Hektarın orta məhsuldarlığı 27,9 sentnerə çatdırılıb ki, bu da dağlıq zona üçün yüksək nəticə hesab oluna bilər. Rayonun Türkeş, Nursu, Mahmudoba, Sələsüz kəndlərində məhsuldarlıq daha yüksək olub.

Rayonun iqlim şəraiti burada kartofçuluğun inkişafı üçün çox əlverişlidir. Bunu nəzərə alan torpaq mülkiyyətçiləri, xüsusilə Ağbulaq, Gömür, Kükü kəndlərinin sakinləri torpaq sahələrinin böyük hissəsində kartof əkib-becərirlər. Ağbulaqlı Ədalət Həsənov ailəsi ilə birlikdə 2 hektar sahədən məhsul tədarük edib. Ümumilikdə isə rayon üzrə 416 hektar kartof əkini sahəsindən 5948,8 ton məhsul götürülüb. Onu da qeyd edək ki, bu sahənin inkişafı üçün 262 nəfərə 262 min manat kredit verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın icrası istiqamətində rayonda həyata keçirilən tədbirlər meyvə və tərəvəz istehsalının artımına müsbət təsir göstərir. Məlumat üçün bildirək ki, bu proqramın qəbulundan ötən müddət ərzində rayonda imeciliklər yolu ilə bağ sahələri 18 hektar artırılıb. Beş nəfər isə bu sahəni inkişaf etdirmək üçün kredit götürərək 7 hektar sahədə bağ salıb. Meyvəçilər üçün cari ili uğurlu saymaq olar. Belə ki, ümumilikdə 790,8 hektar meyvə bağı olan bölgədə 584 hektar məhsul verən sahədən ilin ilk 9 ayında 4346,2 ton məhsul götürülüb. Yığım davam edir.

Şahbuzlular tərəvəzçilikdə də yaxşı təcrübəyə malikdirlər. Başa çatmaqda olan təsərrüfat ilində onlar 283 hektar sahədən tərəvəz tədarük ediblər.

Rayonda son illər üzümçülüyün inkişafına da diqqət artıb. Bunun nəticəsidir ki, ötən illərdə salınmış 17 hektar üzüm bağının 13 hektarı artıq məhsul verir. Bağlardan 10,1 ton məhsul götürülüb.

### *Təhsil, mədəniyyət, səhiyyə sahələri inkişafın yeni müstəvisində*

Təkcə cari ilin ilk 9 ayının göstəricilərinə nəzər salsaq, bu inkişafı görmək olar. Rayonda 23 tam orta məktəb, 6 məktəbdənkənar müəssisəsi fəaliyyət göstərir. Məktəblərdən 19-u, məktəbdənkənar müəssisələrdən 2-si üçün yeni binalar inşa olunub. Bu tədris ilində 2047 şagirdin təlim-tərbiyəsi ilə 702 müəllim məşğul olur. Məktəblərdə 131-i internetə qoşulmaqla, 161 kompüterdən, 53 elektron lövhədən istifadə edilir. Ötən tədris ilində məktəbləri 248 məzun bitirib. Onlardan 182-si ali məktəblərə sənəd verib. 101 abituriyent tələbə adına layiq görülüb, 27 nəfər 500-700 intervalında bal toplayıb.

Beş şöbədən ibarət 30 çarpayılıq Şahbuz Rayon Mərkəzi Xəstəxanasında ilin ötən dövrü ərzində 1390 nəfər müayinədən keçirilib. Xəstəxanada yaradılmış həkim briqadaları tez-tez kənd yaşayış məntəqələrində olur, əhalinin müayinə və müalicəsinə köməklik göstərirlər. Onu da qeyd edək ki, son illər kənd yaşayış məntəqələrindəki səhiyyə müəssisələri üçün də yeni binalar inşa edilib, həmin sağlamlıq ocaqlarında müasir tibbi avadanlıqlar quraşdırılıb. Bu isə əhaliyə göstərilən səhiyyə xidmətinin səviyyəsini yüksəltməyə imkan verib. Hazırda rayonun müxtəlif kəndlərində həyata keçirilən quruculuq tədbirləri çərçivəsində səhiyyə ocaqları üçün də binalar tikilir.

Rayon Mədəniyyət və Turizm Şöbəsinin tabeliyində 1 rayon, 1 qəsəbə, 14 kənd mədəniyyət evi, 1 şəhər, 9 kənd klubu, Mərkəzləşdirilmiş Kitabxana Sistemi, onun 25 filialı, Uşaq Kitabxanası, 2 Uşaq Musiqi Məktəbi, Tarix-Diyarşünaslıq Muzeyi, kinoteatr fəaliyyət göstərir. Ötən dövr ərzində bütün mədəniyyət müəssisələrində tarixi-əlamətdar və bayram günlərinin qeyd olunması, milli-mənəvi dəyərlərimizin qorunması, təbliği diqqət mərkəzində saxlanılıb. Yaradılmış ansambllar, folklor qrupları rayonun mədəni həyatında fəal iştirak edir, insanların asudə vaxtının səmərəli keçirilməsinə çalışırlar.

### *Qışa hazırlıq diqqət mərkəzindədir*

Mövsümü uğurla başa vurmaq üçün rayon Qaz İstismarı İdarəsi və Elektrik Şəbəkəsi öz işini günün tələbləri səviyyəsində qurmağa çalışaraq qışa hazırlığı, demək olar ki, başa çatdırıblar. 4330 abonentə, 106 təşkilata xidmət edən Qaz İstismarı İdarəsi tərəfindən ilin ötən dövrü ərzində Şahbuz şəhərinin “28 May” küçəsindəki 15 saylı ictimai yaşayış binasında və “Bakı” küçəsində yolun genişləndirilməsi ilə əlaqədar qaz xətləri yenidən işlənib. Biçənək, Gömür, Ağbulaq, Kükü, Sələsüz, Qızıl Qışlaq kəndlərində qaz-boru xətlərinin yeri dəyişdirilib. Bu ilin ötən dövründə rayonda 65 yeni fərdi evə qaz xətti çəkilib. Beş qaztənzimləyici cihaz, 54 sayğac texniki cəhətdən nasaz olduğu üçün dəyişdirilib.

Rayon Elektrik Şəbəkəsi 4139 abonentə xidmət göstərir. Bəhs olunan dövrdə enerji itkisinin qarşısının alınması və qış mövsümündə problem yaranmaması məqsədilə Şahbuz şəhərində, Keçili, Kükü, Külüs, Aşağı Qışlaq kəndlərində müxtəlif güclərə malik olan transformatorlar şəbəkədən ayrılaraq enerji verilişi qonşu transformator hesabına nizama salınıb. 9 transformator Culfa təmir sexində təmir olunaraq istifadəyə verilib. Hər iki qurumda digər qabaqlayıcı tədbirlər həyata keçirilib, qış mövsümü üçün mal-material fondu yaradılıb. Görülən işlər isə mövsümün uğurla başa çatdırılacağına təminat verir.

**Şahbuz rayonunda ilin ilk 9 ayının nəticələri barədə qısa məlumatımız da belə deməyə əsas verir ki, bu dağlıq zonada sosial rifahın, yaxşı gün-güzəranın təmin olunmasında dövlət qayğısı başlıca amilə çevrilib. Davamlı xarakter alan, hər addımda müşahidə edilən və bəhrələri görünən belə qayğı isə bölgə sakinlərinin ən qiymətli sərvət olan torpağa bağlılıqlarını daha da gücləndirib. Torpaq isə ona baş əyənə, qədrini bilənə, onu qoruyana heç vaxt borclu qalmır.**

**Muxtar MƏMMƏDOV**

# Vətəndaşlar avtomatlaşdırılmış pensiya təyinatı sistemindən istifadə edə biləcəklər

*Azərbaycan Respublikasında və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə olduğu kimi, əhalinin sosial müdafiəsi sahəsində də bir sıra uğurlu islahatlar aparılmış və təkmil sığorta-pensiya sistemi formalaşdırılmışdır.*

Fərdi uçot sisteminə əsaslanan yeni sığorta-pensiya sistemi işləyən vətəndaşların Dövlət Sosial Müdafiə Fonduna ödəmiş olduqları məcburi dövlət sosial sığorta haqlarına əsasən, pensiya təyinatını özündə əks etdirir. Bu məqsədlə dövlət və özəl müəssisələrdə çalışan işçilər, həmçinin fərdi sahibkarlıqla məşğul olan fiziki şəxslər və mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olan torpaq mülkiyyətçiləri Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları tərəfindən qeydiyyata alınmış, onlara sosial sığorta şəhadətnamələri verilmiş və onlar üçün fərdi şəxsi hesab açılmışdır. 2006-cı il 1 yanvar tarixdən həmin kateqoriyadan olan vətəndaşların (sığortaolunanların) ödəmiş olduqları məcburi dövlət sosial sığorta haqları onların fərdi şəxsi hesablarında toplanır. Sığortaolunanlar pensiyaya çıxanda həmin toplanmış məcburi dövlət sosial sığorta haqlarından onlara pensiya təyinatı aparılır. Sığortaolunanlara təyin olunan pensiyanın məbləği onların fərdi şəxsi hesablarında olan məcburi dövlət sosial sığorta haqlarının məbləğindən və sığorta stajlarından asılıdır. Bunlar nə qədər çox olarsa, sığortaolunanın pensiyası da ona uyğun çox olacaqdır.

“2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı”na əsasən, avtomatlaşdırılmış pensiya təyinatı sisteminə keçidin təmin olunması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

Həyata keçirilən tədbirlərdən biri vətəndaşların (sığortaolunanların) 2006-cı il 1 yanvar tarixinədək bütün əmək fəaliyyəti dövrlərinin onların fərdi şəxsi hesablarına işlənilməsindən ibarətdir. Bunun əhəmiyyəti nədən ibarətdir? Avtomatlaşdırılmış pensiya təyinatı sistemində insan amili aradan qaldırılır, sığortaolunanlar bəzi sənədlər hazırlamaqdan azad olur və əmək pensiyasının məbləği xüsusi proqram vasitəsilə qısa müddətdə hesablanaraq sığortaolunana təqdim olunur. Eyni zamanda sığortaolunan internet vasitəsilə əmək pensiyasının məbləğini qabaqcadan hesablamaq imkanı əldə edir.

Hal-hazırda bu sistem formalaşdırılmaqdadır. Bu məqsədlə sığortaolunanların 2006-cı il 1 yanvar tarixinədək bütün əmək fəaliyyəti dövrlərinin onların fərdi şəxsi hesablarına işlənilməsi prosesi artıq başa çatdırılmışdır.

Sığortaolunanların sığorta stajlarının toplanılması onların əmək kitabçalarında əks olunan məlumatlar əsasında aparılır. Sığortaolunanın əmək kitabçasına əsasən, əmək fəaliyyəti barədə məlumatlar xüsusi hazırlanmış proqram təminatına işlənərək həmin müddətlər vətəndaşın fərdi şəxsi hesabında sığorta stajı kimi öz əksini tapmışdır. Qeyd edək ki, əmək stajlarının toplanılması bütün sığortaolunanlar, o cümlədən fiziki şəxslər və torpaq mülkiyyətçiləri üzrə də aparılmaqdadır.

2006-cı il 1 yanvar tarixinədək sığortaolunanların əmək fəaliyyətinin proqram təminatında qeyd olunması pensiya təyinatında onların həm staj baxımından pensiya təminatı hüququnun yaranmasına, həm də təyin olunacaq pensiyanın məbləğinə təsir edəcəkdir.

Sığorta stajı və məcburi dövlət sosial sığorta haqlarının məbləği pensiya təyinatı üçün tələb olunan əsas göstəricilərdir. Bu göstəricilər də sığortaolunanın fərdi şəxsi hesabında öz əksini tapdığından avtomatlaşdırılmış qaydada xüsusi hazırlanmış proqram vasitəsilə vətəndaşa həmin məlumatlar əsasında pensiya təyinatı aparılacaqdır. Beləliklə, sığortaolunan əlavə sənədlər hazırlamaqdan azad olacaqdır.

Avtomatlaşdırılmış pensiya təyinatı sistemi fəaliyyətə başladıqdan sonra vətəndaşlara onların elektron və telefonla müraciəti əsasında əmək pensiyası təyinatı aparılacaq. Əmək pensiyası təyinatı aparılan vətəndaşa bir neçə dəqiqə ərzində ona təyin olunan pensiyanın məbləği və öz plastik pensiya kartını ala biləcəyi müvəkkil bankın filialının ünvanı bildiriləcək. Bu, sistemdə şəffaflığın daha da artmasını təmin etməklə yanaşı, əlavə vaxt itkisinin qarşısının alınmasına, vətəndaşlarla Dövlət Sosial Müdafiə Fondu orqanları arasında münasibətlərin sadələşdirilməsinə, insan amilinin rolunun son dərəcə azaldılmasına şərait yaradır.

2006-2012-ci illər üzrə sığortaedənlər və sığortaolunanlar tərəfindən təqdim edilmiş məcburi dövlət sosial sığortası üzrə sığortaolunanlar haqqında məlumatlar və 2006-cı ilədək mövcud olan əmək stajlarına qanunvericiliyə uyğun hesablanmış pensiya kapitalları barədə məlumatların DSMF-də hər bir sığortaolunan üçün açılmış fərdi şəxsi hesablara işlənilməsi işləri başa çatdırılmışdır. Beləliklə, Dövlət Sosial Müdafiə Fondu orqanlarına əmək stajı barədə məlumat təqdim edən vətəndaşların avtomatlaşdırılmış pensiya təyinatı sistemindən istifadə etmələri üçün şərait yaradılmışdır.

“Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun internet saytının (www.dsmf.nakhchivan.az) yaradılması da vətəndaşların Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fonduna elektron müraciət etmələrinə geniş imkanlar açmışdır.

Elektron xidmət vasitəsilə sığortaolunanların fərdi şəxsi hesablarına toplanan pensiya kapitalları barədə məlumat əldə edə bilməsinin təmin edilməsi də bu istiqamətdəki uğurlu addımlardan biridir. Beləliklə, artıq istənilən sığortaolunan Dövlət Sosial Müdafiə Fondu tərəfindən açılmış fərdi şəxsi hesabında illər üzrə əks olunan pensiya kapitalına nəzarət etmək imkanı əldə edəcək. Bu həm də işəgötürənlər üzərində ictimai nəzarətin təşkilinə və yaxın gələcəkdə avtomatlaşdırılmış pensiya təyinatına keçmək kimi vəzifələrin uğurla yerinə yetirilməsinə geniş imkanlar açacaqdır. Başqa sözlə, hər bir işləyən vətəndaş sosial sığorta haqlarının vaxtında və tam məbləğdə köçürülməsinə nəzarət etmək və gələcəkdə etibarlı pensiya təminatı əldə etmək imkanına malik olacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

# Müsabiqəyə yekun vurulub

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Naxçıvan Mətbuat Şurasının jurnalistlər arasında “Naxçıvan – inkişafın 10 ili” mövzusunda keçirdiyi müsabiqəyə yekun vurulub.***

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev bildirib ki, muxtar respublika son 10 ildə böyük inkişaf yolu keçib. Bu inkişafın mətbuatın və televiziyanın gücü ilə salnaməyə çevrilməsində kütləvi informasiya vasitələri nümayəndələrinin üzərinə mühüm vəzifələr düşür. Başa çatan müsabiqədə fəal iştirak edən jurnalistlər bu həqiqəti dərindən dərk edərək yazılarında və hazırladıqları verilişlərdə Naxçıvan Muxtar Respublikasının bəhs olunan dövrdə inkişaf və tərəqqisini şərtləndirən amilləri önə çəkiblər.

Məmməd Babayev qalibləri təbrik edib, onlara bundan sonrakı fəaliyyətlərində yeni yaradıcılıq uğurları arzulayıb.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov çıxışında bildirib ki, müsabiqəyə 11 teleradio verilişi və 13 qəzet məqaləsi təqdim edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Naxçıvan Mətbuat Şurası müsabiqəyə təqdim edilən materiallarla tanış olaraq mövzunun əhatə edilməsini və jurnalist araşdırmasını əsas götürərək qalibləri müəyyənləşdirib.

Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli, “Şərq qapısı” qəzetinin Baş redaktoru Tural Səfərov, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin baş məsləhətçisi Ülvi Hüseynli bu müsabiqənin böyük mahiyyət daşıdığını bildiriblər. Qeyd olunub ki, kütləvi informasiya vasitələrinin hər bir nümayəndəsinin ən böyük vəzifəsi yaşadığı dövrün salnaməsini yaratmasıdır. Elə bu məqsədlə keçirilən müsabiqə bir daha göstərdi ki, Naxçıvanda yaşayıb-yaradan jurnalistlər muxtar respublikanın bugünkü sosial-iqtisadi inkişafını təmin edən, bu inkişafın önündə gedən səbəbləri yazı və verilişlərində ifadə edə biliblər.

Sonra mükafatlandırma mərasimi olub. Qaliblərə təşkilatçılar tərəfindən pul mükafatları, diplom və fəxri fərmanlar, həvəsləndirici yerlərin sahiblərinə isə diplom və fəxri fərmanlar verilib.

**Xəbərlər şöbəsi**

# “Keçmişini unutma, o, sabahın müəllimidir...”

## *Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyində dörd mindən artıq eksponat nümayiş etdirilir*

***Şərur güc-əzəmət, bolluq-bərəkət rəmzi olan ulu məkandır. Sinəsində Arpaçayın çağlayıb Xan Araza qovuşduğu bu qədim diyar Dədə Qorqud evi, Babək vətəni, əkinçilər, biçinçilər yurdudur.***

Bu möhtəşəm məkanın hər daşı, hər qayası əsrlərlə təbiətin şıltaqlıqlarına sinə gərib, çiskin yaz yağışı ilə yuyulub, qızmar yay Günəşi ilə rəngdən-rəngə bürünüb, sərt şaxtaboranla üz-üzə dayanıb, əcdadlarımıza ilk və son sığınacaq olub, qəlpələnə-qəlpələnə əl çapacağına, baltalara, qaşovlara, sürtgəclərə dönüb. Daş heykəllərə çevrilə-çevrilə müqəddəsləşib, üst-üstə qalaqlanaraq qalalaşıb, sinəsi pardaqlanaraq, naxışlanaraq incilənib, kitabələşib, əcdadımızın nağıllı dünyasını bağrına basaraq ululaşıb bu çaqıl daşlar. Bu torpağın oğulları dəfələrlə yadelli işğalçılara mərdliklə sinə gərib, bu elin hər qarış torpağını göz bəbəyi kimi qoruyublar. Əzəmətli, bol nemətli, barlı-bərəkətli, qonaqlı-qaralı Şərurun keçmişi öyünəkli, bu günü möhtəşəm, gələcəyi vüqarlı bir diyardır.

Şərur şəhərinin mərkəzində əzəmətli bir bina var. Milli üslubda tikilmiş, gözoxşayan ornamentlərlə bəzədilmiş binada rayon Tarix-Diyarşünaslıq Muzeyi yerləşir. Buraya daxil olanda sanki özünü nağıllar aləmində hiss edirsən. “Min bir gecə” nağıllarındakı illüstrasiyalara, dahi Nizaminin “Sirlər xəzinəsi”, Füzulinin “Leyli və Məcnun” poemalarındakı qəhrəmanlıq, sevgi və məhəbbət səhnələrini əks etdirən rəngarəng, nəfis şəkildə işlənmiş tablolara baxdıqca heyrətlənməyə bilmirsən.

Binanın tavanındakı beş guşənin hər biri xalqımızın qəhrəman oğullarının igidlik dastanından söhbət açır. Yağlı boya ilə çəkilmiş rəngli tablolarda yadellilərə qarşı mübarizədə mərdliklə vuruşan Babəkin, Azərbaycan torpaqlarının birliyi, bütövlüyü naminə canından keçməyə hazır olan şair təbiətli qəhrəman oğlumuz Şah İsmayıl Xətainin, əlində Misri qılınc tutub nərə çəkən xalq qəhrəmanı Koroğlunun, aynalısını çiyninə salıb Boz atını çapan Qaçaq Nəbinin, erməni daşnaklarına qan udduran Vedibasarın mərd oğlu Abbasqulu bəy Şadlinskinin məğrur simaları ilə qarşılaşdıqca haqlı olaraq xalqımızın mərdliyi qarşısında baş əyir, onların igidliyi ilə qürurlanıb fəxr edirsən.

1978-ci ildə ictimai əsaslarla fəaliyyətə başlayan muzey 1980-ci ildən ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə dövlət müəssisəsinə çevrilib. 35 ilə yaxın tarixi olan muzey indi qabaqcıl mədəniyyət müəssisəsi kimi fəaliyyət göstərir. Bu müddət ərzində muzeyə 7 mindən artıq nadir eksponat toplanılıb. Muzeydə 2 şöbə və 13 bölmə fəaliyyət göstərir. “Təbiətşünaslıq”, “Arxeologiya”, “Etnoqrafiya”, “Numizmatika”, “Şəhidlər”, “1941-1945-ci illər müharibəsi”, “Azərbaycan, ana Vətən”, “Mədəniyyət və incəsənət”, “Qırmızı tabor”, “Alimlər”, “Şairlər” və sair bölmələrdə dörd mindən çox eksponat nümayiş etdirilir. Muzeydə saxlanılan və nümayiş etdirilən eksponatların, demək olar ki, əksəriyyəti Şərur ərazisindən toplanılıb. Eramızdan əvvəl III-II minilliklərə aid gil qab hissələri, saxsı qablar, daş büt və keramik bəzək nümunələri, bilərzik, tunc balta, xəncər, nizə ucluqları və sair əşyalar nadir incilərdir.

Yeri gəlmişkən qeyd edək ki, rayonda XX əsrin 30-cu illərindən tədqiq olunaraq aşkara çıxarılmış xeyli abidə var. Həmin abidələr içərisində böyük tarixi əhəmiyyət kəsb edən qədim yaşayış yerləri, qalalar və memarlıq abidələri bu yurdun qədim tarixinin yadigarlarıdır. Elə götürək Qazma mağarasını. Bu mağarada ibtidai icma cəmiyyətinə məxsus insanlar yaşayıblar. Aparılan arxeoloji qazıntılar zamanı Daş dövrünə aid maddi-mədəniyyət qalıqları, o cümlədən çaxmaqdaşı və obsidiandan hazırlanmış xeyli əmək aləti aşkara çıxarılıb. Bu, o deməkdir ki, burada insanlar məskən salanda hələ çox yerlərə insan ayağı dəyməmişdi.

Eneolit və Kür-Araz mədəniyyəti abidələrinin bu ərazidə sayca çoxluğu və mədəni təbəqənin qalınlığı isə eramızdan əvvəl IV-III minilliklərdə Şərur ərazisində əkinçi-maldar tayfalarının intensiv məskunlaşdığını göstərir. Orta Tunc dövrünün abidələri, əsasən, Araz çayı, Arpaçay və onların qolları üstündə salınıb. Oğlanqala, Qarasu, Şortəpə və sair abidələrdən yüksək sənətkarlıqla hazırlanmış boyalı qablar tapılıb. Aşkar olunmuş materialların bəziləri bu muzeyə verilib.

Orta əsr Azərbaycan mədəniyyəti xalçaçılıq sənəti ilə daha çox yadda qalıb. Bu qədim sənətin Şərurda da özünəməxsus inkişaf yolları olub. Muzeydəki kilim, xalça nümunələri bu sənətin tarixindən söz açır. Əmək alətləri olan xış, cüt, kotan, vəl, mərəndi və sair keçmiş əkinçilikdən nümunələrdir. Bu təsərrüfat alətləri qədim əkinçilik mədəniyyəti barədə geniş təsəvvür yaradır.

Tamaşaçılar mədəniyyət bölməsini də maraqla seyr edirlər. Burada şərurlu mərhum Aşıq Nabatın sazı, qədim ney, zurna, tulum, tütək və sair musiqi alətləri nümayiş etdirilir. Rayonun məşhur “Şərur” Xalq Yallı Ansamblının Almaniya, Polşa, Macarıstan, Misir Ərəb Respublikası, Türkiyə, Rusiya və başqa ölkələrdəki çıxışlarını, qastrol səfərlərini əks etdirən fotoşəkillər, albomlar, fəxri fərmanlar və digər sənədlər də bölmənin dəyərli eksponatlarındandır.

Maraqlı bölmələrdən biri də “Qırmızı tabor”dur. Burada 1918-1920-ci illərdə erməni daşnaklarına qarşı mübarizədə böyük şücaətlər göstərmiş Bilal Şadlinski, Musa Səttaroğlu, Abbasqulu bəy Şadlinski, Nəcəf Əliyev, İbrahim Fərzəliyev və başqa qəhrəmanlara aid fotostendlər, onlar haqqında qəzet materialları çoxluq təşkil edir. Abbasqulu bəy Şadlinskiyə məxsus xəncər, gümüş kəmər, təsbeh və onun yaxın silahdaşı, dostu Musa Səttaroğluna aid kitablar muzeyin maraqlı eksponatlarındandır.

Muzeyin ikinci mərtəbəsindəki zəngin bir guşə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə, 90 illik yubileyinə həsr olunub. 2002-ci ildə ulu öndərin Naxçıvana səfəri zamanı Şərur torpağında olmasına dair fotomateriallar böyük ekspozisiya təşkil edir.

Muzeydəki “1941-1945-ci illər müharibəsi” və “Şəhidlər” bölmələrində qəhrəman Şərur övladlarının İkinci Dünya müharibəsində, Sədərək, Qarabağ döyüşlərində göstərdikləri igidliklərdən bəhs olunur. Bura gələnlər Azərbaycanın Milli qəhrəmanları Məhərrəm Seyidova, Səyavuş Həsənova, Kərim Kərimova həsr edilmiş guşələr, stendlər qarşısında dəqiqələrlə ayaq saxlayır, onların xatirəsini yad edir, şücaətləri önündə baş əyirlər. Məktəbli gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində bu guşələrin xüsusilə böyük rolu var. “Alimlər”, “Şairlər” bölmələrində Şərurdan olan elm adamlarının, şair və yazıçıların portretləri, fotoşəkilləri və əsərləri nümayiş etdirilir.

Muzeyin direktoru Mirhüseyn Seyidovun dediklərindən:

– Muzey tarixi, maddi və mənəvi dəyərlərin saxlanıldığı, qorunduğu və öyrənildiyi elm, maarifləndirmə müəssisəsidir. Muzeyimizdə saxlanılan elə eksponatlar vardır ki, xalqımızın çoxəsrlik tarixini, qədimliyini, milliliyini özündə əks etdirir. Əməkdaşlarımız muzeylə bağlı tamaşaçılara maraqlı məlumatlar verir, rayonumuzun tarixi keçmişini əks etdirən materiallar və eksponatlarla onları yaxından tanış edirlər.

Hər muzey bir elin, bir obanın, bir xalqın tarixi yaddaşıdır. İllər illərə qovuşur, aylar aylara calanır, günlərin saçına dən düşür, insan ömrü növbələşir və qətrə-qətrə, zərrə-zərrə tarix yaranır. İnsanoğlu öz əlinin əməyilə, ürəyinin işığıyla, ağlı, zəkasıyla yaradır bu tarixi. Heç təsadüfi deyil ki, hər muzey eksponatında bir insan ömrünün, insan taleyinin əks-sədası duyulur. Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyindən ayrılarkən bu hissləri yaşayırdım. Atalar çox gözəl deyib: “Keçmişini unutma, o, sabahın müəllimidir...”

**Cəfər ƏLİYEV**

**Dünya ədəbiyyatında elə bir şair tapmaq olmaz ki, onun əsərlərində payız nəfəsi hiss edilməsin. Payız A.Puşkin üçün "təbiətin ən cazibəli afəti", Qabriel Qarsiya Markes üçün "ömrün qürub çağı", Boris Vian üçün "ruhun təlatümünün ifadəsi" idi... Payız Azərbaycan ədəbiyyatında da özünəməxsus tərənnüm və təsvirə malik fəsil olmuşdur. Bəlkə də, bütün dünya ədəbiyyatından qabaq rənglərin mistik rəqsinin tərənnümü olan payıza "Dədə Qorqud" dastanlarında "güz" adıyla rast gəlirik:**

# Payız bolluq fəslidir



*"Bərü gəlgil, başum bəxti,*
*evüm təxti!*
*Evdən çıqub yüriyəndə səlvi*
*boylum!*
*Topuğından sarmaşanda qara*
*saçlum!*
*Qurulu yaya bənzər çatma*
*qaşlum!*
*Qoşa badam sığmayan tar*
*ağızlum!*
*Güz alması bənzər al*
*yanaqlım!"*

Hər fəslin öz gözəlliyi olduğu kimi , öz əhval-ruhiyyəsi də vardır. Payız qışın xəbərçisidir. Bu fəsildə havalar yavaş-yavaş soyuyaraq insanları qışa hazır olmağa çağırır. Ağaclar yaşıl libasını soyunur, bitkilər Günəşin rənginə boyanır. Payız fəslinin mistik bir aurası var. İnsan təbiətin bu halını seyr edərkən duyğu selinə qapılır...

Gözəlliyi ilə gözoxşayan bu fəsil, bərəkəti ilə də könül oxşayır. Payız dörd fəsil içərisində ən çox bolluğun müşahidə edildiyi fəsildir.

İnsanlar bu fəsildə qış üçün lazım olacaq azuqəni hazırlamağa başlayırlar. Bu vaxt yetişən meyvələrdən mürəbbələr bişirilir, ev-eşik isti əşyalarla döşənir. Əvvəllər qış üçün odun-kömür tədarük olunur, çörək yapılır, yun əyrilir, qış üçün isti geyimlər toxunurdu...

O vaxtlarla indini müqayisə etdikdə ölkəmizdə gedən sürətli inkişafın bir daha şahidi oluruq. Ən ucqar kəndlərimiz belə, qaz və elektrik enerjisi ilə təmin olunub, evlər qaz sobaları ilə isidilir. Hər şəhərdə, kənddə çörək sexləri fəaliyyət göstərir. Böyüklərimiz danışırlar ki, əvvəllər çıraqlardan, şamlardan istifadə edirdik, kömür və odun sobaları əhalini usandırmışdı, evlərlə birlikdə təlim-təhsil ocaqları, iş yerləri də eyni problemi yaşayırdı. Bu söhbətləri dinləmək ölkəmizdə gedən sürətli inkişafı açıq-aydın görməyimizə imkan verir. Bu inkişafı və firavanlığı təmin edənlərə minnətdarlığımızı bildiririk.

Payız fəsli haqqında çox danışmaq olar. Bu fəsil etnoqrafiyamızda ayrıca yerə malikdir. Bunun üçün tarixçi-etnoqraf alim, AMEA-nın müxbir üzvü Hacı Qadir Qədirzadə ilə payız fəsli haqqında söhbət etdik:

***– Payız fəsli haqqında düşüncələriniz nələrdir? Bu fəslin özünəməxsusluğu haqqında nə deyə bilərsiniz?***

– Payız fəsli bolluq fəslidir. Həmçinin payız toylar fəslidir. Çünkü bu fəsildə təsərrüfat işləri azalır, məhsul yığımı başa çatır, asudə vaxt çox olur, heyvanlar ət tutur (kökəlir). Bu fəsil qışa hazırlığın tamamlandığı vaxtdır.

***– Xalqımız payız fəslini necə keçirir, bu fəsildə nə kimi işlər görülür?***

– Bu fəsildə "il ruzisi" (qovurmalıq, un ehtiyatı) adlandırılan ərzaq ehtiyatı hazırlanır. Un ehtiyatının hazırlanması xüsusilə çətin iş idi.

***– Qadir müəllim, görünür, o vaxtlar indiki kimi bolluq yox imiş?***

– Bəli, əvvəllər bu cür bolluq yox idi. O vaxtlar əhali əziyyət çəkirdi. Məsələn, un əldə etmək üçün su dəyirmanlarından istifadə olunurdu. Kəskin iqlimi olan Naxçıvanda havalar soyumağa başlayanda un əldə etmək çətinləşirdi. Çünkü bu vaxt su donurdu, dəyirmanlar öz fəaliyyətini məcburi dayandırırdı. Bəzi dəyirmanlar kəhrizlərin üzərində yerləşirdi, təkcə bu dəyirmanlarda iş davam edirdi, lakin bələləri az idi. Payızda əkin sahələrinə "don suyu" adlanan su verilirdi. Belə bir deyim var idi: "güz suyu, yüz suyu". Əkin sahələrinə verilən bu su yüz suya bərabər imiş. Bu vaxt torpaqda olan bütün zərərvericilər məhv olurdu. Naxçıvanın bəzi yerlərində isə bu aylarda buğda və arpa əkilib suvarılırdı. Yeni əkinə verilən bu ilk su "torpaq suyu" adlanırdı.

***– Qadir müəllim, etnoqraf alim kimi tarixin müxtəlif dövrlərində xalqımızın məişət şəraiti, milli adətləri ilə bağlı tədqiqatlar aparmısınız. Payız fəslinə aid keçirilən mərasimlər əvvəlki dövrlərdən nəyi ilə fərqlənir? Keçmiş dövrlərdə bu fəsillə bağlı qeyd olunan adət və mərasimlər hansılardır?***

– Bəli, əvvəllər payızın son aylarında, yer donmağa başlayanda heyvanların otlağa, örüşə aparılmasına son qoyulurdu. "Naxırqoyan" adlanan bu adət geniş yayılmışdı. Bu vaxt "çoban öz ağacını yerə qoyurdu".

Əvvəllər "Qoçqarışan" adlanan bir mərasim də var idi. Bu mərasim oktyabr ayında qeyd olunurdu. Mərasimdə qoç sürüyə buraxılırdı, bu vaxt insanlar çobana ərməğanlar aparırdılar. Çoban da onları "çoban fətiri" adlanan fətirə qonaq edirdi. Bu fətir daşda bişirilirdi. Mərasim çox təmtəraqlı keçirilərmiş. Novruz bayramına qədər sürü çoxalarmış. Təəssüf ki, indi bu adət yoxdur. Bu mərasimə "Qoç bayramı", "Çoban bayramı" da deyirdilər.

Xalq arasında belə bir inam var imiş: "Əgər qoç ağ qoyuna tərəf qaçarsa, qış qarlı, ala qoyuna tərəf qaçarsa, ala qarlı, qara qoyuna tərəf qaçarsa, quraq keçəcəkdir".

Payızın rəngarəngliyi xalqın fikir dünyasına da yansıyırdı, gözəl nağmələr, deyimlər yaranırdı ki, bu dəyərlərimiz bizi var edib, var edəcəkdir.

***– Bildiyimiz kimi, payızda xalqımız qış fəsli üçün hazırlıq görür. Müasir dövrümüzdəki qışa hazırlıqla, qədim dövr arasında nə kimi fərqlilik mövcuddur?***

– Müasir dövrümüzdə xalq rahat yaşayır, ərzaq və geyim baxımından bolluqdur, həm elektrik enerjisi, həm də təbii qazla təminat yüksək səviyyədədir. Demək olar ki, yaşamaq üçün hər nə lazımdırsa, ölkəmizdə mövcuddur.

Əvvəllər bu cür şəraitimiz yox idi. Əhali payızda qış üçün isti geyimlər hazırlayardı. Bunu öz gücləri ilə əldə edərdilər.

Qız-gəlinlər ağbirçəklərin rəhbərliyi altında hana (palaz, xalça) toxuyarmışlar. İnsanlar bir-birlərinə qarşılıqlı kömək edirdilər ki, buna "iməci", "öməci" (qarşılıqlı yardımlaşma deməkdir. Bu adət indi yoxdur) deyərdilər.

Bundan əlavə, əvvəllər Naxçıvanda payız aylarında xalq 3 şeyin hazırlanmasına diqqət edərmiş: dadlıq (yağ, pendir, heyvanat məhsulları), yanacaq, mal-qara üçün yem ehtiyatı.

Belə bir deyim var idi: "Yayın yayxıntısı qışın dadlığıdır". Ərzaqlar içində Naxçıvanımıza məxsus olan qovurma xüsusi yer tuturdu. Qovurma hər ətdən bişirilə bilməzdi. Övəc (yetişən heyvan) ətindən hazırlanmalı idi. Heyvan erkək olmalı idi. Qovurma olunan heyvanın ciyərindən "çızlı" hazırlanırdı. Bu yemək Ordubad rayonunda indi də hazırlanır. Qovurma teştinin başına qohum-qonşu yığılırdı. Qovurmanın işgənəsi (pörtlədilmiş ət suyu) iyi gedəcək evlərə paylanarmış. Bu, bir növ, yardımlaşma idi. İndi bu adətimiz təsadüf yerlərdə rastımıza çıxmaqdadır. Xalq şairi Bəxtiyar Vahabzadə "Ömrün payızı" şerində belə misralar işlədib.

Qadir müəllimin də danışdıqlarından aydın olur ki, xalqımız qədim adət-ənənələri olan zəngin mədəniyyətə sahibdir. Bizim borcumuz bu mədəniyyətimizlə fəxr etmək, bu mədəniyyətin elementləri olan milli dəyərlərimizi ən qiymətli əmanət kimi gələcək nəsillər üçün qoruyub saxlamaqdır.

**Nərgiz İSMAYILOVA**

# Muxtar respublikada sanitar vəziyyət stabildir

***Hər bir ölkədə epidemioloji vəziyyət tək səhiyyənin deyil, ümumi inkişafın göstəricisidir. Son dövrlərdə muxtar respublikamızda həm qoruyucu peyvəndlərin aparılması, həm də digər tədbirlər sayəsində epidemioloji sabitlik təmin olunmuşdur.***

Oktyabr ayında muxtar respublikamızda yenidoğulmuş 427 uşaq idarəolunan yoluxucu xəstəliklərə görə peyvənd almışdır. Mövsümi xəstəliklərin və zəhərlənmələrin qarşısını almaq məqsədilə qidalanma sənayesi, kommunal, ictimai-iaşə, ticarət, su təchizatı, müalicə-profilaktika müəssisələrinin rəhbərlərinə müvafiq göstərişlər verilmiş, su təchizatı sistemlərində, ictimai, inzibati və fərdi binalarda, tullantı və çirkab suları axıdılan yerlərdə, məişət tullantıları qoyulan meydançalarda müntəzəm olaraq dezinfeksiya, dezinseksiya tədbirləri həyata keçirilmişdir.

İstehsal olunmuş məhsulların sertifikatlaşdırılması işi Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə birgə aparılmış, ay ərzində 17 məhsul sertifikatlaşdırılmışdır.

Ay ərzində Bakterioloji laboratoriya fəaliyyətini davam etdirmiş, 52 su, 308 yuyuntu nümunələrinin, 252 digər nümunələrin müayinələri aparılmışdır.

Obliqat qrupların bakterioloji müayinələri diqqət mərkəzində saxlanılmış, səhiyyə üzrə 112, təhsil üzrə 254, qidalanma sənayesi, ictimai-iaşə və ticarət üzrə 56, kommunal sahələr üzrə 26, sürücülük üzrə 44 nəfər olmaqla, bütövlükdə, 492 nəfər müayinədən keçmişdir.

Radioloji qrup tərəfindən 9 yerdə gündəlik olaraq radioloji ölçmələr aparılmış, təbii fon şüalanması yol verilən hədd daxilində olmuşdur. Qidalanma gigiyenası laboratoriyasında 63 nümunədə 223 müayinə aparılmış, o cümlədən yerli istehsal olan xörək duzu nümunələrində yodun, həmçinin 30 un nümunəsində bəsit elektrolit dəmir preparatlarının tələbata uyğunluğu müəyyən edilmişdir.

Kommunal gigiyena laboratoriyasında 40 nümunədə 320, Toksikoloji, xarici mühitdə və ərzaq məhsullarında zəhərli kimyəvi maddələrin qalıq miqdarının təyini laboratoriyasında 23 nümunədə 57 müayinə aparılmışdır. Xüsusi təhlükəli infeksiyalar laboratoriyasında vəbaya görə 12 su, qarayaraya görə 43 torpaq, brusellyoza görə 1 qan nümunəsində təhlükəli nəticə qeydə alınmamışdır.

Əhalinin sanitariya sahəsində maarifləndirilməsi ardıcıl şəkildə aparılmış, 11 mühazirə oxunmuş, 5 seminar keçirilmiş, tibbi şurada 7 məsələ müzakirə edilmişdir.

Əhalinin sanitariya-epidemioloji vəziyyətinin yaxşılaşdırılması məqsədilə muxtar respublikanın sanitariya-epidemioloji xidmət orqanları tərəfindən obyektlər sanitar-gigiyenik vəziyyətə görə yoxlanılmış, aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün müvafiq tədbirlər görülmüşdür.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Gömrükçülərin futzal turnirinə yekun vurulub

## *"Sədərək" komandası yarışın qalibi olub*

Muxtar respublika gömrük orqanları arasında keçirilən futzal turnirinə yekun vurulub. Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində keçirilən yarışda 6 komanda mübarizə aparıb.

Turnir üç turdan ibarət olub. Oyunlar dairəvi sistem üzrə keçirilib. Əsasən, dörd komandanın çempionluq şansı yüksək qiymətləndirilsə də, bu şansı reallığa çevirən tərəf "Sədərək" olub. Birinci tur çərçivəsində oynanılan "Komitə"-"Sədərək" oyunu ümumi nəticə üçün həlledici olub.

Son oyun günündə üz-üzə gələn "Komitə" və "Şahtaxtı" komandalarının qarşılaşmasında ikinciliyin taleyinə aydınlıq gətirilib. Bu oyunda minimum bir xala ehtiyacı olan komitə təmsilçiləri 7:3 hesablı qələbə ilə xal ehtiyatını 12-ə çatdıraraq turnirin ikincisi olublar.

Komandaların mükafatlandırılması mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov ölkəmizdə, o cümlədən muxtar respublikamızda idmanın inkişafına və kütləviliyinə göstərilən yüksək dövlət qayğısından danışıb. Gömrükçülər arasında idmanı təbliğ etmək, onların fiziki sağlamlığının qayğısına qalmaq məqsədilə keçirilən yarışların ənənəvi xarakter aldığını qeyd edən komitə sədri idmanın gömrük əməkdaşları arasında qarşılıqlı münasibətlərin inkişafına müsbət təsir göstərdiyini, onların mübarizlik hisslərini artırdığını diqqətə çatdırıb.

Sonra komandaların və turnirdə fərqlənən idmançıların mükafatlandırılması mərasimi olub. Bütün oyunlarda maksimum nəticə göstərən "Sədərək" komandası turnirin keçici kuboku ilə yanaşı, kubok, diplom və medallarla təltif olunub. Həmçinin turnirin "ən yaxşı müdafiəçi"si, "ən yaxşı qapıçı"sı, "ən məhsuldar oyunçu"su və "ən yaxşı məşqçi"si adına layiq görülənlər də mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

# Paralimpiyaçılarımız III yerləri tutublar

Noyabrın 16-dan 17-dək Ağsu rayonunda paralimpiya idman festivalı keçirilmişdir. Muxtar respublikamızın da paralimpiyaçılarının qatıldıqları festivaldan idmançılarımız medallarla qayıtmışlar. Belə ki, ağırlıqqaldırma üzrə mübarizə aparan təmsilçilərimizdən 65 kiloqram çəkidə Telman Şirinov, 88 kiloqram çəkidə isə Eldar Əliyev üçüncü yerlərə layiq görülmüşlər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

"Moment yapı Sənaye və Ticarət Anonim" Şirkətinin Naxçıvan Muxtar Respublikasındakı filialı fəaliyyəti bitdiyindən ləğv olunur.

* * *

Naxçıvan şəhəri, Firdovsi küçəsi, ev 100-də yaşamış Məmmədova Niyar Şahbaz qızının adına olan 3573 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV
Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır
Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 3940. Sifariş № 1050